# Qacar dövlətinin süqutu və Palanilər



**Elşən Mirişli**

*Gəncə şəhəri, tarixçi*

**III Yazı**

## Azərbaycan Xalq Cümhuriyyətində Qacar sülaləsinə mənsub olan üç general

### Feyzulla Mirzə Qacar

***Şahzadə Feyzulla Mirzə Qacar 1872-ci il dekabrın 15-də Azərbaycanın Şuşa şəhərində doğulmuşdu.Qacar dövlətindəki hakim şah sülaləsinə mənsub olan Şəfi xan Qacarın oğlu idi.1918-ci ilin dekabrın 23-ü Azərbaycan Xalq Cümhuriyyətinin Milli ordusunun süvari diviziyasının rəisi təyin edilir.1919-cu il yanvarın 9-u AXC-nin Hərbi naziri Mehmandarovun əmri ilə Gəncə qarnizonunun komandanı təyin edilir.***

***Gəncədə 1920-ci ildə baş vermiş antisovet üsyanın yatırılmasından sonra ruslar tərəfindən güllələnmişdi.***

### Əmir Kazım Mirzə Qacar

Əmir Kazım Mirzə Bəhmən oğlu 1853-cü ildə Şuşa şəhərində anadan olmuşdu.Süvari general-mayoru rütbəsinə qədər yüksəlmişdi.Mehmandarovun əmri ilə Əmir Kazım Mirzə Qacar Gəncənin komendantı təyin olunmuşdu.

Aprel işğalından sonra Əmir Kazım Mirzə Qacar Gəncə üsyanında feal iştirak edir,əsir düşür və 1920-ci ildə fövqəladə komissar Tixarelinin əmri ilə Gəncə şəhəridə öldürülür.

### Məhəmməd Mirzə Qacar

Məhəmməd Mirzə Qacar 1872-ci ildə doğulmuşdu.Qacarlar sülaləsindəndir.Bəhmən Mirzənin beşinci arvadı Çiçək xanımdan olan dördüncü oğludur.General –mayor rütbəsinə qədər yüksəlmişdi.

***Vəzifəsi:***

***Baş Artilleriya İdarəsinin rəisi.***

***Gəncə Qarnizonunun rəisi.***

***Azərbaycan ordusunun təchizat rəisi.***

Məhəmməd Mirzə Qacar 1920-ci ilin mayında bolşevik işğalına qarşı başlamış Gəncə üsyanının təşkilatçısı və başçısı idi.Ona üsyandan sonra təşkil olunacaq yeni hökumətə rəhbərlik etmək tapşırılmışdı.Üsyan uğurlu olarsa Nazirlər Şurasının sədri-baş nazir və hərbi qüvvələrin komandanı olmalı idi.Gəncə üsyanı zamanı mühasirəni yarımış bu zaman şəhid düşmüşdü.Azərbaycan ordusunun üç Qacar general-mayoru Feyzulla Mirzə Qacar,Əmir Kazım Mirzə Qacar və Məhəmməd Mirzə Qacar hərb tariximizə adlarını əbədi yazaraq Azərbaycanın istiqlaliyyəti üçün son nəfəsinə qədər savaşaraq şəhid olmuşdular.

### Rza şahın Alman yönümlü xarici siyasəti və taxtdan endirilməsi

1941-ci ilin avqustun 25-də səhər çağı Qızıl Ordu hissələri İran sərhədini keçib,Ərdəbil və Təbriz istiqamətində qırx kilometr irəlilədilər.Eyni zamanda İranın cənub və qərbindən ölkəyə ingilis qoşunları da daxil oldu.Qızıl Ordu hissələri avqustun 26-da Təbriz və Ərdəbilə, avqustun 30-da Zəncana,avqustun 31-də Qəzvinə daxil oldular.1941-ci il sentyabrın 17-də sovet,sabahısı gün isə ingilis qoşunları Tehrana daxil oldular.Həmin ilin sentyabrında İranda bütün siyasi məhbusların azad olunması haqqında amnistiya elan olundu.Rus ordu hissələri Uşnu-Miyandab-Zəncan-Qəzvin-Babol-Zirab-Semnan-Şahrud və şərqdə Əliabad xəttindən şimalda,həmçinin Məşhəd şəhəri rayonunda yerləşdilər.İngilis qoşunları Xanəgin-Kermanşah-Xürrəmabad-Məscede Süleyman-Rame Hörmüz-Bəndər Deyləm xəttindən cənuba və qərbə doğru olan ərazini tutdular.

Hələ avqustun 25-də müttəfiq qoşunlar İrana daxil olmağa başlayanda,Rza şah orduya müqavimət göstərmək haqqında əmr verdi.Lakin nə sovet, nə də ingilis qoşunları əleyhinə ciddi müqavimət olmadı.Əsgər və zabitlərin böyük hissəsi müqaviməti mənasız sayıb,ya təslim olur, ya da fərarilik edib geri çəkilirdilər.Rza şah ölkəyə nəzarətin tamamilə itirildiyini görüb,Foruqi başda olmaqla yeni hökumətin yaradılmasına razılıq verməyə məcbur oldu.Avqustun 28-də yeni hökumət müqavimətin dayandırılması haqqında əmr verdi.Hökumət orqanları istər mərkəzdə, istərsə də yerlərdə özlərini tamamilə itirmişdilər.Buna görə də hakim dairələr mütləqiyyətin xilas edilməsi üçün yegane çıxış yolunu Rza şahın öz oğlunun xeyrinə taxtdan imtina etməsində gördülər və bu planın həyata keçirilməsi üçün onu inandıra bildilər.Sentyabrın 14-də Rza şah taxtdan imtina etdi və tezliklə ingilislər tərəfindən Cənubi Afrikaya sürgünə göndərildi.



Rza Palaninin (Pəhləvinin) taxtdan imtina etməsi,hakim yuxarı təbəqələrin,hərbi-siyasi aparatın yaranmış şəraitdə diktatura rejimini qoruyub saxlamaqda çaşqınlıq və bacarıqsızlığı,başlıcası isə ölkənin türk əhalisinin itirilmiş dövlətçiliyi bərpa etmək qətiyyəti ona gətirib çıxardı ki,1941-ci ilin payızında Azərbaycan türklərinin siyasi fəallığı daha da genişləndi.Antihitler koalisiyası üzrə SSRİ-nin müttəfiqləri,ilk növbədə ABŞ və İngiltərə yaranmış vəziyyətdən istifadə edərək,öz mövvqelərini İranda möhkəmləndirməyə,ölkə iqtisadiyyatında hakim mövqe tutmağa çalışırdılar.Faşist aparturası əleyhinə mübarizə aparmaq,tranzit daşınma üçün nəqliyyat yollarının təhlükəsizliyini təmin etmək bəhanəsi ilə onlar,ilk növbədə ABŞ (öz qoşunlarını İrana 1942-ci ilin axırında daxil etmişdir) ölkənin maliyyə,ordu və polisini öz nəzarəti altına aldılar.

Sovet İttifaqının,ABŞ və İngiltərənin rəsmi siyasəti Qacar dövlətinin və türk dövlətçiliyinin bərpasına yol verməmək idi.Min illərlə bundan qabaq ölmüş milləti birgə dirildərək tarix səhnəsinə çıxarmışdılar.Bu milləti tacik əsilli xalqlardan və Azərbaycan türklərinin millətindən imtina etmiş vətən xainlərindən yaradılmışdı.

Məhz Sovet İttifaqının təşəbbüsü sayəsində İran müharibə illərində antihitler koalisiyası dövlətləri ilə fəal beynəlxalq münasibətlər dairəsinə cəlb olunmuşdu.1942-ci ilin yanvarın 29-da Tehranda SSRİ,Böyük Britaniya və İran arasında ittifaq haqqında müqavilə imzalanmışdı.Bu müqavilə əsasında Sovet İttifaqı və Böyük Britaniya, "İranın siyasi istiqlaliyyətinə,müstəqilliyinə,ərazi bütövlüyünə birlikdə və ayrı-ayrı ehtiram etməyi" öz öhdələrinə götürdülər.

***İngilislər Rza şahı Bənddər Abbasda həbsdə saxlayırdılar.Onun həbs yerini dəyişərək Mauritius adasına apardılar.Rza şah tanış olmayan tropik hava şəraitinə görə xəstə idi.Onun Cənubi Afrika Yohannesburqa apardılar.Rza şah 26 iyul 1944-cü ildə Yohannesburqda öldü.Rza şah mazan xalqından olan ilk şah idi.***

### Məhəmməd Rza Palani (Pəhləvi)

Məhəmməd Rza Palani 1919-cu il oktyabrın 26-da Tehran şəhərində doğulmuşdu.1925-ci ildə Böyük Britaniyanın təşkil etdiyi dölət çevrilişi Qacar dövləti süqut etdi. Çevrilişi başında duran Rza xan özünü şah və oğlu Məhəmməd Rza Palanini isə vəliəhd şahzadə elan edir.16 sentyabr 1941-ci ildə Məhəmməd Rza İranın şahənşahı elan edilmişdi.Onun hakimiyyəti şahlığı 11 fevral 1979-cu ilə qədər davam etdi.

### Güney Azərbaycanın 21 Azər zirvəsi

İran Azərbaycanında başlamış milli qurtuluş mübarizəsi nəticəsində 1945-ci il dekabrın 12-də Təbrizdə Azərbaycan Respublikası elan olundu və Seyid Cəfər Pişəvəri baş nazir seçildi.Dekabrın 12-də Azərbaycan Milli Məclisi Seyid Cəfər Pişəvəri başda olmaqla,Milli hökumətin 12 nazirdən ibarət tərkibini təsdiq etdi.Baş nazirin müavinləri,baş prokuror və ali məhkəmənin sədri də təsdiq olundular.Həm məclisin,həm də hökumətin tərkibi Azərbaycan türklərindən ibarət idi.Azərbaycan hökumətinin tərkibi belə idi:

***1.Baş nazir –Seyid Cəfər Pişəvəri.***

***2.Daxili işlər naziri-Salamulla Cavid.***

***3.Xalq qoşunları naziri-Cəfər Kavian.***

***4.Kənd təsərrüfatı naziri-doktor Mehtaş.***

***5.Maarif naziri-Məhəmməd Biriya.***

***6.Səhiyyə naziri-doktor Urəngi.***

***7.Maliyyə naziri-Qulamrza İlhami.***

***8.Ədliyyə naziri-Yusif Əzima.***

***9.Yol poçt və teleqraf, telefon naziri Kəbiri.***

***10.Ticarət və iqsadiyyat naziri-Rza Rəsuli.***

***11. Ali Məhkəmənin sədri- Zeynalabidin Qiyami.***

***12. Baş prokuror - Firudin İbrahimi.***

Milli azadlıq hərəkatının xarakterinə uyğun olaraq məclisin tərkibində bütün təbəqələrin nümayəndələri təmsil edilmişdilər. Belə ki, onlardan 16 nəfəri fəhlə və sənətkar, 26 nəfəri orta və varlı kəndli, 24 nəfəri müəllim, həkim, mühəndis və s.,13 nəfəri dövlət qulluqçusu, 2 nəfəri fabrik sahibi, 7 nəfər tacir,11 nəfəri torpaq sahibi və 2 nəfəri ruhani idi.

Azərbaycan Milli hökuməti təşkil olunduğu ilk gündən xalqa arxalanaraq, demokratik tədbirlər həyata keçirməyə başladı. Hökumətin proqramı 20 maddədən ibarət idi.

Milli Məclis yerli hakimiyyət orqanları olan vilayət, şəhər və kənd əncümənlərini yaratdı.Yerli əncümənlərin seçilməsi üçün 46 maddədən ibarət seçki qanunu qəbul etdi.

Məclisin qərarı əsasında Milli hökumət Azərbaycan türkcəsini rəsmi dövlət dili elan etdi. Bütün təhsil ocaqlarında, dövlət idarələrində fərman və qanunlar ana dilində yazılmağa başladı. 50-yə qədər qəzet və məcəllə xalqla onun öz dogma dilində danışan məsləhətçisi müsahibi oldu.

Sovet İttifaqı, Böyük Britaniya və İran dövləti arasında bağlanmış 1942-ci il tarixli ittifaq müqaviləsinə görə,sovet qoşunlarının İranda qalma müddəti 1946-cı il martın 2-də qurtardı. Elə həmin gün Məşhəd, Şahrud, Semnan şəhərlərindən rus qoşunlarının çıxarılması başlandı.

Azərbaycan Milli Hökuməti 1945-ci il dekabr ayının 20-də Qızılbaş Xalq Ordusunun yaradılması haqqında qanun qəbul etmişdir.

Rəsmi Qızılbaş Xalq Qoşunlarının Baş Qərargahı yaradılmış,9 nəfərdən ibarət heyət qərərgaha rəhbərlik etmək üçün seçilmişdir: Seyid Cəfər Pişəvəri,Cəgər Kavian,Əbdülqasim Əzimi,Danişyan Qulam Yəhya,Rəbi Kəbiri,Mahmud Pənahian,Nəvai,Milanian, Əbdülrza Azər.

Bu zaman Azərbaycan silahlı qüvvələri cəmi 18 min nəfərdən ibarət idi. Bunların 8 min nəfəri fədai və 10 min nəfəri isə yeni yaradılmış Qızılbaş Xalq Qoşunu idi.

Milli heyətin fəaliyyəti nəticəsində dekabr ayının 10-na qədər Azərbaycanın vilayətlərindən milli məclisə 101 nəfər nümayəndə seçildi.1945-ci il dekabr ayının 12-də Təbriz şəhərində Milli Məclis Azərbaycanın istiqlaliyyətini elan etdi.Seyid Cəfər Pişəvəri başda olmaqla 12 nazirdən ibarət hökumətin tərkibini təsdiq etdi.

İran baş naziri Əhməd Qəvamüssəltənə şah ordusuna rəhbərliyi Amerika generallarına tapşırdı.İranın jandarm qüvvələrinə başçılıq edən general Şvartskof,qoşun hissələrinə rəhbərlik edən amerikalı general Kerli və general Redlinin rəhbərliyi altında Azərbaycan hökumətini məhv etmək üçün hərbi şura yaradıldı.Hərbi Şurada 27 nəfər yüksək rütbəli amerika zabiti var idi.

Azərbaycan milli hökuməti general Kəbiri,general Əzimi,general Milanian Möhsün,polkovnik Qulu Sübhi başqalarının iştirakı ilə 1946-cı ildə Marağa şəhəri yaxınlığında hərbi müşavirə keçirdi.Vahid hərbi komandanlıq yaradıldı.

1946-cı ilin fevral-mart aylarında İranın baş naziri Əhməd Qəvam Moskvaya gedib Stalinlə görüşdü.Onların imzaladığı sazişin son 3-cü bəndi Azərbaycana aid idi.Orada deyilirdi: "Azərbaycanla barışıq sazişi imzalanmalıdır və bu, İranın daxili işidir".

Bu saziş əslində Azərbaycanın suverenliyinə Sovet İttifaqının lideri Stalin və İran Palani Mazan sülaləsi tərəfindən son qoyulması demək idi.1946-cı il iyunun 13-də Təbrizlə Tehran arasında bağlanan müqavilə Pişəvərinin yeganə çıxış yolu idi.Çünki Azərbaycana qarşı persrus ittifaqı yaradılmışdı.Moskvanın təyziqi ilə Zəncan Milli Hökumətin tabeliyindən çıxarılaraq İrana verildi.Az sonra Azərbaycanda seçkilərə guya nəzarət üçün yeridilən şah persiş qoşunlarına Moskvanın sərt gücü təyziqi ilə Azərbaycan ordusu müqavimət göstərmədi.Bu vətənə xəyanət Azərbaycan dövlətinin məhvinə gətirib çıxardı.

1946-cı ilin noyabr ayında 50 mindən artıq olan Məhəmməd Rza Palani qoşunları 55tank,150 təyyarə,174 top,3 minə qədər ağır pülemyot və başqa silahlarla 3 istiqamətdə Azərbaycana daxil oldu.İran təyyarələrini Amerika piotları idarə edirdi.

***Azərbaycan hökuməti Moskvanın təyziqi ilə bütün cəbhələrə məktub göndərmiş,müqavimət göstərməməyi tapşırmışdı.Guya şah qoşunları Stalinin tapşıngı ilə Milli Məclisə keçirilən seçkilərə nəzarət üçün gəlir.Moskvanın bu xəyanəti 60 min nəfər azərbaycan türkünün məhvinə səbəb oldu.Azərbaycan türkləri general Kəbiri,general Əzimi,polkovnik Sübhi kimi minlərlə mərd oğullarını itirdi.Minlərlə Azərbaycan türkü sürgünə göndərildi.10 minlərlə vətənpərvər mühacirətə getdi.İran qoşunlarının qan içində boğduğu bu hərəkat Sovet İttifaqı tərəfindən İranın şimal neftinə qurban verilmişdi.Azərbaycan işğal olunduqdan sonra İranın XV Məclisi neft haqqında İran- Rusiya müqaviləsini təsdiq etmədi.Ruslar öz sərhədləri yaxınlığında Azərbaycan Respublikasının yaradılmasını istəmirdilər.Özlərinin parçaladığı şimali Azərbaycanda əbədi ağalıq etmək istəyirdilər.SSRİ-yə mühacirət edən Seyid Cəfər Pişəvəri 1947-ci ildə sovet təhlükəsizlik qüvvələri tərəfindən düzəldilən terrorla aradan götürüldü.İran adlı məmləkət 1935-ci ildə ABŞ,Böyük Britaniya və SSRİ tərəfindən bir Turan məmləkəti olan Qacar dövlətinin ərazisində qurulmuşdu.Bu üç böyük dünyanı idarə edən dövlətləri türk düşmənçiliyi birləşdirirdi.***

**(ardı var)**